# Prezident İlham ƏLİYEV: İşğal altında olan bütün başqa torpaqlarımızda da Azərbaycan bayrağı qaldırılacaqdır!

## Azərbaycan Xarici İşlər Nazirliyi aprel döyüşlərinin ildönümü ilə bağlı bəyanat yayıb

***Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi aprel döyüşlərinin ildönümü ilə bağlı bəyanat yayıb. Bəyanatda deyilir: "2016-cı ilin aprelində cəbhədə vəziyyətin gərginləşməsindən bir il ötür. 2 aprel 2016-cı ildə Ermənistan işğal olunmuş ərazilərdəki mövqeyindən atəşi intensivləşdirərək, qoşunların təmas xətti boyunca Azərbaycan silahlı qüvvələrini və Azərbaycanın nəzarətindəki yaxın ərazilərdə sıx yaşayan mülki əhalini ağır artilleriya və böyük kalibrli silahlardan hədəfə aldı. Ermənistanın bu hücumları və növbəti zorakı addımları nəticəsində Azərbaycanın 34 yaşayış məntəqəsi və kəndi artilleriya atəşinə məruz qaldı, aralarında uşaqlar olmaqla 6 nəfər həlak oldu və 33 nəfər ağır yaralandı. Dövlət və özəl mülkiyyətə zərər yetirildi.***

Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində mülki əhalinin təhlükəsizliyini təmin etmək və Ermənistanın növbəti təxribatlarının qarşısını almaq üçün zəruri əks-həmlə tədbirləri görüldü.

Ermənistanın təxribatçı hücumları nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbi xidmətçiləri arasında həlak olanlar və yaralananlar oldu. Ölümündən sonra Azərbaycan hərbi qulluqçularının cəsədlərində Ermənistan tərəfindən işgəncələrin törədilməsi halları da qeydə alındı.

2016-cı il aprelin 5-də Moskvada Rusiya Federasiyasının vasitəçilik səyləri nəticəsində Ermənistan və Azərbaycan arasında atəşkəs razılaşdırıldı. Amma buna baxmayaraq, Ermənistan yenidən 2016-cı il aprelin 26-27-də təmas xətti boyunca yaşayış məntəqələri və kəndlərdə yaşayan mülki Azərbaycan əhalisini ağır artilleriyadan atəşə tutdu.

Aprel hadisələri bir daha nümayiş etdirdi ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu cəbhədə vəziyyətin gərginləşməsinin əsas səbəbidir və münaqişənin siyasi həlli üçün başlıca maneədir.

Aprel gərginliyindən sonra ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin xarici işlər nazirlərinin təşəbbüsü ilə Azərbaycan Respublikası və Ermənistan Respublikası prezidentlərinin 2016-cı il mayın 16-da Vyanada görüşü keçirildi. Rusiya Federasiyası Prezidentinin dəvəti əsasında 2016-cı il iyunun 20-də Sankt-Peterburqda Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin görüşü keçirildi və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə substantiv danışıqlar aparıldı.

O vaxtdan etibarən Ermənistan həyata keçirdiyi qərəzli siyasi-hərbi təxribatları və müxtəlif bəhanələri ilə təşəbbüsün saxlanmasına və Sankt-Peterburqda əldə edilmiş anlaşmaların konkret əməllərə keçirilməsinə, gərginliyin azaldılmasına imkan vermədi və öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasına başlamadı.

Ermənistanın siyasi-hərbi rəhbərliyinin son bəyanatları və müharibə çağırışlı ritorikası və substantiv danışıqları boykot etməsi və qeyd-şərtlər irəli sürməsi açıq surətdə Ermənistanın konstruktiv şəkildə münaqişənin həllində niyyətli olmadığını göstərir. Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində öz hərbi imkanlarını artırması, işğal olunmuş ərazilərin demoqrafik, mədəni və fiziki xüsusiyyətlərini dəyişməsi danışıqlar prosesini pozmaq və Azərbaycan ərazilərinin ilhaqını həyata keçirmək kimi çirkin niyyətlərini aşkara çıxarır.

Azərbaycan Respublikası bir daha bəyan edir ki, heç vaxt ərazilərinin işğalı ilə barışmayacaq. Münaqişənin həlli yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ölkəmizin suverenliyi və ərazi bütövlüyü əsasında mümkündür.

Münaqişənin həllinin prinsipial əsasını BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri təşkil edir. BMT Təhlükəsizlik Şurasının qətnamələrində Azərbaycana qarşı gücdən istifadə olunması və Azərbaycan ərazilərinin işğalı pislənilir və ölkəmizin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı bir daha təsdiq olunur. Bu qətnamələrdə BMT Təhlükəsizlik Şurası bir daha təsbit edir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Həmçinin qətnamələrdə BMT Təhlükəsizlik Şurası tərəfindən işğalçı qüvvələrin bütün işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur.

Biz beynəlxalq ictimaiyyəti və ATƏT-in Minsk qrupunun həmsədrlərini Ermənistandan öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, işğala əsaslanan status-kvonun dəyişdirilməsi və regionda davamlı sülhün təmin olunması üçün konstruktiv şəkildə substantiv danışıqlarda iştirakın tələb edilməsinə çağırırıq".

***AZƏRTAC***

## Siyavuş Novruzov: Aprel döyüşləri göstərdi ki, Dağlıq Qarabağ dondurulmuş münaqişə deyil və hər an alışa bilər

***"Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, qüdrətini, Ali Baş Komandanın uzun illərdir orduya göstərdiyi diqqəti, ordunun müasir silahlarla təchiz olunmasını, Silahlı Qüvvələrimizin döyüş qabiliyyətini və ruh yüksəkliyini, ordu-xalq birliyini və xalq-iqtidar birliyini bariz şəkildə nümayiş etdirdi".***



Bunu Trend-ə Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov deyib.

S.Novruzov xatırladıb ki, cənab Prezident, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüş keçirib:

"Cənab Prezident ümumilikdə aprel döyüşləri ilə bağlı gedişata qiymət verdi, həmçinin gələcəkdə qarşıda duran vəzifələr haqqında danışdı. Hesab edirəm ki, bu, vacib bir məsələdir. Çünki aprel döyüşləri son 20 ildə bizim tariximizdə mühüm əhəmiyyət kəsb edən döyüşlərdən biridir. İndiyə qədər düşünürdülər ki, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişədir, lakin aprel döyüşləri göstərdi ki, Dağlıq Qarabağ dondurulmuş münaqişə deyil və hər an alışa və çox ağır nəticələr verə bilər. Azərbaycan gənclərinin Dağlıq Qarabağa üz tutması, vətəndaşlarımızın könüllü olaraq ordu sıralarına yazılmaqla bağlı müraciətlər etməsi və hamının bir nəfər kimi Ali Baş Komandanın bu siyasətini dəstəkləməsi Dağlıq Qarabağ münaqişəsinin gələcəkdə də həll olunmamış qalmasının mümkünsüzlüyünü göstərdi".

Millət vəkili vurğulayıb ki, aprel döyüşləri nəticəsində son bir il ərzində Ermənistanda ictimai-siyasi sabitlik tamamilə pozulub:

"Ermənistan cəmiyyətində həm siyasi, həm hərbi, həm də iqtisadi və sosial vəziyyət baxımından böyük gərginlik yaşanır. Artıq erməni anaları öz övladlarını döyüşə göndərmək, onların Dağlıq Qarabağ ərazisində hərbi xidmət keçmələrini istəmirlər. Ermənistanda keçiriləcək seçkilərdə də müxalifəti təmsil edən bir sıra partiyalar və onların tanınmış nümayəndələri, o cümlədən keçmiş prezidentlər, baş nazir və başqa-başqa strukturlarda rəhbər vəzifələrdə çalışmış şəxslər də Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və Azərbaycanla əlaqələrin qurulmasını əsas şüar olaraq öz seçki platformalarına daxil ediblər. Aprel döyüşlərinin nəticəsi budur. Yəni bir il ərzində Ermənistan ictimaiyyətinin böyük hissəsi artıq Azərbaycanla sülh danışıqlarına getməyi, Azərbaycanla əlaqələrin qurulmasını istəyir və Ermənistanın düşdüyü ağır durumdan çıxmasını məhz bu yolda görürlər".

S.Novruzov bildirib ki, Prezident İlham Əliyev də çox düzgün olaraq görüşdə həmin məsələlərə toxundu, Azərbaycanlıların öz dədə-baba torpaqlarına, hətta qədim torpaqlarına qayıdacağı mesajını bilavasitə çatdırdı.

## Aprel döyüşləri Azərbaycan əsgərinin vətənpərvər və qəhrəman obrazını nümayiş etdirdi

***Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, hər an torpaqları azad etmək iqtidarında olduğunu, habelə Azərbaycan əsgərinin vətənpərvər və qəhrəman obrazını nümayiş etdirdi. Bu döyüşlər zamanı Azərbaycan Ordusu Ermənistan silahlı birləşmələrinin təxribatlarına tutarlı cavab verərək nəyə qadir olduğunu göstərdi.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin üzvü Rövşən Rzayev deyib.

R.Rzayev qeyd edib ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşündə bildirdiyi kimi, bu gün Azərbaycan Ordusu həm döyüş qabiliyyəti, vətənpərvərlik ruhu və maddi-texniki təminat baxımından dünya miqyasında güclü ordular sırasındadır.

"Aprel döyüşlərindən sonra Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə köçmək istəyən vətəndaşlarımızın sayının artması ermənilərin dünya ictimaiyyəti qarşısında "azərbaycanlılar öz doğma torpaqlarına qayıtmaq istəmir" kimi yalanlarını da ifşa etdi. Dünya ictimaiyyəti bu mifin Ermənistanın cinayətkar hakimiyyəti tərəfindən yaradıldığının, Azərbaycan gənclərinin öz torpaqlarını unutmadıqlarının, hər an döyüşə hazır olduqlarının şahidinə çevrildi", - deyə deputat qeyd edib.

R.Rzayev bildirib ki, bu gün Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünü bərpa etmək gücündədir. Ali Baş Komandanımızın vurğuladığı kimi, bu gün Azərbaycan Ordusu o qədər güclüdür ki, bu gün bizim o qədər güclü texnikamız, silah-sursatımız, müasir silahlarımız var ki, düşmənin istənilən strateji və hərbi obyektini məhv etməyə hər an hazırıq. Münaqişə zonasında situasiyanın artıq Ermənistanın xeyrinə olmadığını işğalçı ölkənin rəhbərliyi də yaxşı bilir. Ümumilikdə aprel döyüşləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində yeni vəziyyətin yaranmasına və Azərbaycanın böyük üstünlük qazanmasına səbəb oldu.

## Aprel döyüşləri zamanı Azərbaycan Ordusu ermənilərə böyük dərs verdi

***Aprel döyüşləri bizim böyük tarixi qələbəmiz, Ermənistanın isə həm siyasi, həm iqtisadi, həm də psixoloji cəhətdən məğlubiyyətidir. Həmin döyüşlərədək Ermənistan siyasi rejimi tərəfindən belə bir mif yaradılmışdı ki, işğalçı dövlətin ordusu və onların yaratdığı istehkamlar keçilməzdir. Lakin aprel döyüşləri bunun sadəcə mif olduğunu sübuta yetirdi.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası icra katibinin müavini Mübariz Qurbanlı deyib.

M.Qurbanlı bildirib ki, bu döyüşlər zamanı Azərbaycanın şanlı ordusu ermənilərə böyük dərs verdi. Eyni zamanda, ordumuzun 2016-cı il aprelin 2-dən 5-dək davam edən uğurlu əks-hücum əməliyyatları ölkəmizə yüksək hərbi və siyasi üstünlüklər qazandırdı.

"Azərbaycan xalqı ermənilərə və bütün dünyaya necə hərbi qüvvəyə malik olduğunu, ordumuzun fiziki və mənəvi gücünü nümayiş etdirdi", - deyən M.Qurbanlı qeyd edib ki, dövlətimizin başçısının Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə keçirdiyi görüşdə də qeyd etdiyi kimi, aprel döyüşləri demək olar Ermənistanın ideoloji əsaslarını dağıtdı, Ermənistan rəhbərliyi aprel döyüşləri zamanı özlərini tam şəkildə ifşa etdi. Onlar həm döyüş meydanında acı məğlubiyyətə uğradılar, həm də siyasi meydanda heç bir dəstək almadılar. Həmçinin siyasi baxımdan düşmən bir daha şahid oldu ki, Azərbaycan əzəli torpaqlarını qısa müddət ərzində geri qaytarmağa qadirdir.

Dövlət Komitəsinin sədri deyib ki, aprel döyüşləri həm də Azərbaycanın öz torpaqlarını azad etmək uğrunda apardığı ədalətli mübarizə idi: "Azərbaycan BMT-yə daxil olanda ölkəmizin sərhədlərini bütün dünya qəbul edib. Ona görə də Azərbaycanın işğal olunmuş bütün əraziləri BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə uyğun olaraq azad edilməlidir. BMT-nin Nizamnaməsinin 51-ci maddəsində qeyd edilir ki, hər hansı bir ölkə işğala, təcavüzə məruz qalarsa, öz ərazisini silahla, güclə azad etmək hüququna malikdir. Bu, Azərbaycan xalqının haqqıdır, hüququdur. Biz haqq uğrunda mübarizə aparırıq. Prezidentimizin çox gözəl ifadəsi var: "Erməni əsgəri işğal olunmuş ərazilərdə nə gəzir ki, orada ölsün?". Erməni əsgəri torpaqlarımızdan rədd olmalıdır ki, xalqımız ərazilərimizin üzərində suverenliyini bərpa etsin. Bu haqq uğrunda da mübarizə aparırıq".

M.Qurbanlı qeyd edib ki, Azərbaycan ordusunun kifayət qədər gücü, qüdrəti var. Azərbaycan xalqının orduya, Prezident İlham Əliyevin siyasətinə böyük dəstəyi var. Çox qürurverici haldır ki, hazırda Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının işğaldan azad edilmiş hissəsində Azərbaycan bayrağı dalğalanır, o torpaqlara bu gün Azərbaycan Ordusu nəzarət edir. Allah ötən ilin aprelində yüksək şərəf və ləyaqətlə Vətənimiz uğrunda şəhid olan qəhrəman oğullarımıza rəhmət eləsin!

## Hərbi ekspert: Apreldə ordumuz qarşısında Qarabağı işğaldan azad etmək vəzifəsi qoyulsaydı, onu da yerinə yetirərdi

***"Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşündə çox mühüm, ciddi mesajlar verdi".***

**Bunu APA-ya açıqlamasında Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan polkovniki Şair Ramaldanov deyib.**

Ş. Ramaldanov bildirib ki, ordumuzun gücünü, qüdrətini, Azərbaycan cəmiyyətinin Qarabağ məsələsində birliyini qeyd edən Ali Baş Komandan bildirdi ki, Ermənistan düzgün qərar qəbul edib, işğal edilmiş torpaqlardan çəkilməsə, Azərbaycan malik olduğu bütün güc və vasitələrlə işğalçı qüvvələri darmadağın edəcək: "Ali Baş Komandan həm də Azərbaycan Ordusu hərəkətə keçəcəyi halda Ermənistan cəmiyyətini nələrin gözləyəcəyini, hansı itkilərin olacağını açıqladı. Bu, erməni cəmiyyətinə, erməni analarına bir ismarıcdır. Dövlət başçısı humanist insan kimi bildirdi ki, Azərbaycan dövləti hələ Ermənistan cəmiyyətinə düzgün qərar qəbul etmək, itkilərdən çəkinmək üçün vaxt verir".

Ehtiyatda olan polkovnik Azərbaycan Prezidentinin çıxışında Azərbaycanın öz ərazisində ikinci Ermənistan dövlətinin yaradılmasına imkan verməyəcəyini, bir qarış torpağını da işğal altında qoymayacağını bəyan edib: "Bu, həm də Ali Baş Komandanın Silahlı Qüvvələrə verdiyi qiymət və inamdır.



Eyni zamanda ordumuza gələcəkdə torpaqlarımızın azad edilməsi üçün verilən tapşırıqdır. Ali Baş Komandanın tapşırığı ilə əlaqədar Silahlı Qüvvələrdə müəyyən hazırlıq aparılacaq, döyüş hazırlığı daha da artırılacaq və konkretləşdiriləcək. Aprel döyüşləri bir daha göstərdi ki, ordumuzu işğalçı qüvvələri məğlub etmək imkanı var, bu imkandan da ordumuz istifadə edəcək".

Ş. Ramaldanov dövlət başçısının həm də beynəlxalq qurumlara mesaj ünvanladığını vurğulayıb: "Dövlət başçısı bildirdi ki, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi öz daxili işidir, ona görə də heç bir başqa dövlət buna müdaxilə edə bilməz. Eyni zamanda beynəlxalq təşkilatlara ismarıc göndərdi ki, münaqişənin Azərbaycan ərazi bütövlüyü, beynəlxalq hüquq normaları çərçivəsində sülh yolu ilə həlli üçün aktiv hərəkətə keçsinlər və Ermənistana lazımi təzyiqlər göstərsinlər. Əgər beynəlxalq qurumlar buna nail ola bilməsə, o halda Azərbaycan bir yolu var. Bu da silah gücü ilə torpaqlarını azad etməsidir".

Ş. Ramaldanov Azərbaycan Prezidenti və Ali Baş Komandan İlham Əliyevin aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüşünü vacib addım kimi qoymətləndirib: "Bu görüşdə həm Azərbaycan Silahlı Qüvvələrinin və Ermənistan Silahlı Qüvvələrinin bugünkü durumuna müqayisəli qiymət verildi, həm də beynəlxalq qurumlara lazımi mesajlar ünvanlandı. Azərbaycan xalqının torpaqlarımızın işğaldan azad edilməsində israrlı olacağı bir daha diqqətə çatdırıldı. Bu mesajlardan hər kəs öz payını götürməlidir. Beynəlxalq qurumlar passivliyə və münaqişənin həllinə ikili standartlarla yanaşmaya son qoymalıdır. Son vaxtlar həyasızlıq edən, hədələr səsləndirən, konstruktivlik nümayiş etdirməyən, status-kvonu saxlamağa çalışan Ermənistan isə mövqeyinə yenidən baxıb, torpaqlarımızı işğaldan azad etməlidir. Əks halda, Azərbaycan güc yolu ilə torpaqlarını azad edəcək. Artıq gözləmək olmaz. Çünki zaman göstərir ki, müəyyən qüvvələr sülhsevərliyimizdən istifadə edir, vaxtı uzadır".

**Hərbi ekspert Üzeyir Cəfərov** da APA-ya açıqlamasında bildirib ki, Ali Baş Komandan aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşündə çox dəqiq və ciddi mesajlar çatdırıb: "Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan Silahlı Qüvvələri aprel ayında bütün imkanlarından istifadə etməyib, cüzi şəxsi heyətlə bu qələbəni əldə edib, geniş miqyaslı hərbi əməliyyat aparmaq planı qarşıya qoyulmamışdı. Dövlət başçısı qeyd etdi ki, Azərbaycan Silahlı Qüvvələri keçən ilin aprelində yalnız düşmənin silahlı təxribatının qarşısını alarkən bu nəticəni əldə edib. Yəni Azərbaycanın qarşısında Qarabağı işğaldan azad etmək kimi bir vəzifə olsaydı, Silahlı Qüvvələr bu tapşırığı da yerinə yetirərdi. Azərbaycan prezidenti beynəlxalq qurumların münaqişəni sülh yolu ilə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini gözlədiyimiz üçün hələlik bu addımın atılmadığını, Ermənistan vətəndaşlarının da ölümünü istəmədiyimizi vurğuladı".

Ü. Cəfərov BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının işğal edilməsi ilə əlaqədar 4 məlum qətnaməsini xatırladıb: "Erməni silahlı qüvvələri Azərbaycan ərazisində işğalçı statusundadır. Yaxın zamanlarda danışıqlar prosesində hər hansı irəliləyiş olmayacaqsa, Azərbaycan yəqin ki, bu məsələni güc yolu ilə həll edəcək. Azərbaycanın bunun üçün yetərli silah və insan resursu var, hərbi hazırlığımız çox yüksək səviyyədədir. Azərbaycan Ordusu keçən ilin aprelində 20 ildir ki, Ermənistan ordusunun cəbhədə güclü müdafiə xətti yaratması ilə bağlı mifi dağıtdı. Bu, Ermənistana ciddi siqnal idi. Sabah Ermənistanda parlament seçkiləri keçiriləcək. Bu günlərdə ermənilər də çox narahatdırlar ki, Azərbaycan aprel uğurunu təkrar edəcək. Onsuz da Azərbaycan əsgəri gec-tez üzərinə düşən missiyanı yerinə yetirəcək, buna heç kimin şübhəsi olmamalıdır. Ermənistan və işğalçıya havadarlıq edənlər də Azərbaycanın artıq belə bir qərar verəcəyindən narahatdır. Azərbaycan Prezidenti görüşdə bir daha bəyan



etdi ki, ərazimizdə ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcək, ölkəmizin ərazi bütövlüyü də bərpa olunacaq. Azərbaycan Silahlı Qüvvələri də tam heyətdə bu tapşırığı yerinə yetirməyə hazırdır. Azərbaycan qarşısına qoyulan məqsədə nail olmaq üçün 2016-cı ildə də ən müasir silahlar alıb və yəqin ki, yaxın vaxtlarda beynəlxalq qurumların hesabatlarında da bu, əksini tapacaq. Həmin silah və texnikalar Qarabağ savaşında öz sözünü deyəcək. Azərbaycanın siyasi-hərbi rəhbərliyinin mövqeyi qətidir - Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunana qədər lazımi addımlar atılacaq".